ƏLVİDA, QAQRA!

Əlvida, gözəl Qaqra!
Həmişə yaşıl olan
Dağlarına əlvida!
Ətrindən məst olduğum
Mandarini sapsarı
Bağlarına əlvida!
Əlvida, gözəl Qaqra!
Ellərimə bənzəyən
Ellərinə əlvida!
Bağçaların bəzəyi
Biri qızıl, biri ağ
Güllərinə əlvida!
Hər şeydən çox sevdiyim,
Budaqları sallanan
Palmalara əlvida!
Süfrələrin zinəti
Şərablara əlvida!
Almalara əlvida!
Əlvida, gözəl Qaqra!
Gecələr dinlədiyim
Sükutuna əlvida!
Bir qoyun sürüsü tək
Yamaclara yığılan
Buluduna əlvida!
Dənizlərin gözəli,
Qara dəniz deyilən
Dənizinə əlvida!
Suların üzündəki
Gümüşünə əlvida!
Xoş sözünə əlvida!

1965

SEVGİLİM

Otağımda dəniz ətri,
Yatağımda dəniz ətri,
Göy sularda yaxalanan
Bədəninin, tellərinin
Ətridir bu, sevgilim!
Dalğaları yarıb üzən
Gen sinənin, əllərinin
Ətridir bu, sevgilim!
Sən bir qızıl balıq kimi
Üzən zaman dalğalarda,
Qırmızı bir rəngə çalır
Elə bil ki, dalğalar da!
Dəniz səndən ətir alır
Sən dənizdən, sevgilim!
Ayrılmayır bu al günəş
Bir an sizdən, sevgilim!
Gözlərində məskən salıb
Gecə-gündüz dəniz özü,
Sənin şirin nəğmələrin
Ləpələrin olub sözü
Qoy var olsun Koktebeldə
Qara dəniz, bir də insan,
Sevgilim!
Göy təpələr, bu boz dağlar,
Bu məhəbbət, bu xoş dövran
Sevgilim!

1967

KOKTEBEL

Üç tərəfin boz dağlardır,
Qabağında Qara dəniz –
Mavi gözlü pəncərə,
Koktebel!

Pəncərədən dan sökülür
Pəncərədən gülür həyat,
Biz baxırıq səhərə,
Koktebel!

Pəncərədən şər qarışır,
Qızıl telli günəş batır,
Pəncərədə doğur Ay,
Koktebel!

Sahillərdə kimsə olmur,
Qışqırışıb qağayılar
Sularda salmır haray,
Koktebel!

Göy bağlara, bağçalara,
Uzaqdakı təpələrə
Çökür gözəl bir sükut,
Koktebel!

Parladıqca ağ ulduzlar
Nə dağlarda duman olur,
Nə göylərdə bir bulud,
Koktebel!

Doğma Krım torpağında –
Sənin cənnət qucağında,
Qəşəng olur gecələr,
Koktebel!

Könlüm uçub yuvasından
Vəhşi bir çöl bülbülü tək
Ağaclarda gecələr,
Koktebel!

Gündüzünün bir hüsnü var,
Ay çimməndə dalğalarda
Gecənin də bir hüsnü,
Koktebel!

Ölmərəm mən bir də görsəm,
Qara dağı, Filbaşını,
Bu növrağı, bu günü,
Koktebel!
Koktebel!

1967

* * *

Koktebeldə bir dağ gördüm –
Kəpəz kimi haçadil!
Koktebeldə bağlar gördüm –
Öz bağımdır elə bil!
Qızıl qapı, Sehrli dağ
Yaranmışdır tamaşa;
Göz gördükcə baxmaq istər,
Az qalır ağlım çaşa!
Hər qayanın öz adı var,
Hər daşın da öz dərdi.
Dağ da qalır, daş da qalır,
İnsan gəldi-gedərdi!
Ürəyimdə insan qəmi,
Gəzdim neçə dağı mən.
Qara dəniz yatağından
Qopub axdı sinəmdən.
Yağma, yağış! Əsmə, külək!
İnciməsin Qara dağ,
Tale döyüb, zaman çəkib
Sinəsinə onun dağ,
O dağ deyil, bir kitabdır,
Qayalar da varağı.
Uzaq-uzaq zamanlardan
Gəlir onun sorağı.
Ürək soyuq daş olanda,
İtirməyib özünü
Bu dağlara həkk eləmiş
İnsan daim sözünü!

Mən bilirəm öz dilim tək
Qara dağın dilini,
Mən bilirəm hər ulduzun,
Hər yarpağın dilini.
Mən dağlarda şimşəklərlə
Öz dilimdə danışdım.
Burda əsən küləklərlə
Sanki çoxdan tanışdım.
Könlümdə bir qala qurdu
Bu qardaşlıq, məhəbbət,
Dənizdəki bu fırtına,
Dağlardakı əzəmət!

1967

LEYLA

Qanlı döyüş zamanı
Burda bir qız görmüşdüm:
Adı Leyla!
Özü Leyla!
Sözü Leyla!
Gözü Leyla!
İsti, tozlu yolları
Gəzdikcə ayaqlarım,
Susuzluqdan partlayıb
Yanırdı dodaqlarım.
Hissəmiz dayanmışdı
Kənddə, yolun içində,
O, hey bizə baxırdı
Sevinc, maraq içində.
Çiynimdən avtomatı
Əlimə alıb həmən,
Ondan su istədim mən.
Qız qaçdı evə sarı...
Əlində bir kasa su,
Sonra da geri döndü.

Baxdım ona, ürəyim
Şiddət ilə döyündü.
– Alın, için – deyib o,
Kasanı verdi mənə.
Mən gah kasaya baxdım,
Gah da onun üzünə.
Soruşdum: – Adın nədir?
– Adım, Leyla! – dedi qız.
Düşündüm: toplar susar,
Bir gün gülər baxtımız!

Qızınsa gözlərinə,
Nədəndirsə, bir anlıq
Çökdü acı bir kədər.
Çökdü sanki qaranlıq.
Özü də hiss etmədən
Əlimi əlinə aldı,
Qəlbinin hərarəti –
Mənim əlimdə qaldı.
– Getmə, – dedi, – uzağa.
Qal burada, amandır,
Bu döyüşlər yamandır!
- Yox, yox... Qala bilmirəm...
Getməliyik indi biz,
Qabaqda düşmənlərdir,
Arxada Qara dəniz.
Biz ayrıldıq o gündən,
Döyüşlər yetdi başa,
Bir qələbə günəşi
Qondu torpağa, daşa.
Mən yenə bura gəldim,
Görmədim qızı ancaq.
Ürəyimə sancıldı
Qara saplı bir bıçaq!
– Leyla! – deyib çağırdım:
Bağlar susdu, dinmədi.
Bəlkə qara yellərin

Qurbanı oldu Leyla?!
Ya da qanlı əllərin
Qurbanı oldu Leyla?!
Yerdə Leyla olmadı,
Göydə Leyla olmadı.
Tapılmadı gözəl qız,
Alovların içində
Soldu bizim arzumuz.
Yox, Yox! Mənim şeirimdə
Yurd-yuva saldı Leyla,
Krımdan bir yadigar
Qaldı qəlbimdə Leyla!
Qaldı qəlbimdə Leyla!

1967

* * *

Dünən göydən od yağırdı,
Bu günsə yağış yağır.
Yağış yağır narın-narın
Boz dumana bürünmüş
Şiş qayalı dağlara.
Yağış yağır narın-narın
Ağaclarda al – sarı,
Yamyaşıl yarpaqlara.
Dənizə yağış yağır,
Yağış yağır torpağa.
Yağış yağır yaxına,
Yağış yağır uzağa.
Yağış yağır bağçadakı
Yenicə qönçələnmiş
Çiçəyimə, gülümə.
İçimdə bir sərinlik var, –
Elə bil çölə deyil,
Yağış yağır könlümə!

1967

KÜLƏK ƏSİR DƏNİZƏ

Uzaqdakı dağlardan
Külək əsir dənizə...
Deyin, belə bir səhnə
Tanışdırmı heç sizə?
Təpələrdən, dağlardan
Külək əsir dənizə!..
Külək əsir dənizə...
Nə dalğa, nə tufan var,
Suyun üzü büsbütün
Olubdur damar-damar...

Ancaq üç gün, üç gecə
Çalxalanıb hey dəniz,
Sahil ilə davada
Nələr etdi, bilsəniz!
Dəniz göydən asıldı
Dalğalarla üç gecə!
Sular çarpdı daşlara,
Çarpdı üç gün: şaqşaraq,
Əsdi qaya, əsdi dağ!
Amma indi sularda
Titrədikcə bu külək,
Qoca dəniz dincəlir
Yatır körpə quzu tək!
Dəniz yatır... Sanki o,
Əsla nəfəs almayır:
Ayna sular qırılıb
Qayalarda qalmayır.
Günəş gəzir dənizdə!..
Suyun üzündə min rəng!
Səma qəşəng! Yer qəşəng!
Nə dalğa, nə tufan var,
Suyun üzü büsbütün
Olubdur damar-damar...
Baxdıqca bu aləmə,
Yandı sinəmdə ürək.

– Varmı, – dedim, – dünyada,
Varmı elə bir külək
Əsə 20-ci əsrə,
Əsə bizim zamana?!
Ağır toplar, raketlər
Susamaya al qana!
Gülə insan, gülə yer,
Gülə daim bu həyat,
Fırtınasız, tufansız
Daha xoşdur kainat!

1967

BOLQARISTAN ŞEİRLƏRİ

ƏSGƏR ÜRƏYİ

Ballada

Varnada günəş batır...
Dayanmışam sahildə,
Hava xoş, su da ilıq.
Dənizdə bir gül vardır,
Lalə kimi qırmızı,
Bir az da bağrı yanıq.
Mən dənizə baxıram:
Uzaqlardan əsən meh,
Saçıma çəkir daraq.
Mən o gülə baxıram:
Qəlbimdə baş qaldırır
Tükənməyən bir maraq.
Yox, yox, bu gül deyildir:
Sanki qanlı bir ürək.
Üzür sahilə sarı.
Görkəmində mərdliyin
Basılmayan qüdrəti.
Bir də qəmi, qubarı.
O, sahilə gələrək,
Qayaların içində
Qabağımda dayandı.

– Söylə kimsən? – dedim mən.
O isə alovlanıb
Suda şam kimi yandı:
– Mən sənin eloğlunam...
Unutmadım Kəpəzi,
Unutmadım Qoşqarı.
Bu suların altında
Tökülübdür üstümə
Bizim dağların qarı.
Vətən candan şirindir,
O, dayandı bu ara,
Dalğalandı dəniz də.
Mən də xəyala daldım:
Xəyallar da danışır
Bizim zəmanəmizdə.
– Bəli... Vətən dedim mən...
Neyləyim ki, əllərim
Yetişməyir bir ona.
Məni düşmən gülləsi
Bu dənizin qoynunda
Bulayıbdır al qana.
Səni görüb uzaqdan,
Suları yara-yara
Çıxmışam indi üzə.
Ölümün evi uçsun...
Məni həsrət qoyubdur
Bir dosta, şirin sözə.
Yamanca narahatam...
Su altından edirəm
Yer üzünə tamaşa.
Yenə dünya çaxnaşır...
Yenə ölüm, yenə qan
Vicdanlar dönüb daşa.

Amandır! Qoymayın siz
Parçalanıb ürəklər
Dənizlərə tökülsün.
Şər yenə qəh-qəh çəkib,